# Şəxsiyyətyönlü kurikulumlar əsasında yaradılan riyaziyyat dərsliklərinin xüsusiyyətləri

**Könül Əliyeva**
*Sumqayıt Dövlət Universitetinin dosenti*
**Vəfa Rzayeva**
*Sumqayıt Dövlət Universitetinin assistenti*
**E-mail:** abdullayev_ayxan@list.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. X.S. Həsənova,
r.ü.f.d., dos. N.S. Sayılov

**Açar sözlər:** riyaziyyat dərslikləri, təhsil standartları, təlim materialları, tədris resursları
**Ключевые слова:** учебники математики, стандарты образования, материалы обучения, ресурсы преподавания
**Key words:** math textbooks, education standards, training materials, forwarding resources

Təhsilin bütün mərhələlərində, o cümlədən ümumi təhsildə şəxsiyyətin maraq və ehtiyaclarını ödəyə bilən təhsil sisteminin yaradılması mühüm vəzifə kimi qarşıya qoyulur. Bu isə istər-istəməz ilk növbədə təlimin məzmununun, ona uyğun metod, forma və vasitədən ibarət strateji bir sistemin hazırlanmasını tələb edir.

Bütün bunlarla əlaqədar artıq ənənəvi təhsil müasir dövrün tələbatını ödəmədiyindən 2006-cı ildə mütərəqqi dünya təcrübəsini özündə əks etdirən yeni sənəd – "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" qəbul olunmuşdur. Ona uyğun olaraq ibtidai təhsilin fənn kurikulumları yaradılmış, təsdiq edilərək məktəblərin istifadəsinə verilmişdir. Əsas və orta təhsil üzrə fənn kurikulumlarının ilkin variantı üzərində işlər başa çatdırılmışdır.

Hazırda yeni kurikulumların tələblərinə uyğun resursların hazırlanması davam edir. Artıq riyaziyyat dərslikləri orta məktəbin on birinci sinifləri üçün də nəşr olunmuş və istifadəyə verilmişdir.

Ölkəmizdə aparılan təhsil islahatının bir mühüm istiqaməti dərsliklərin yaradılması sahəsində illərlə davam edən təcrübənin öyrənilib ümumiləşdirilməsi, məhz bu dövrdə Azərbaycanda ilk dəfə "Ümumtəhsil sistemində dərslik siyasəti"nin qəbul edilməsindən ibarət olmuşdur. Bu sənəddə ilk dəfə dərsliyin sosial statusu müəyyənləşdirilmişdir. Göstərilmişdir ki, dərslik konkret fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izah olunduğu əsas vəsaitdir. Təhsilin keyfiyyətli olması və yeni kurikulumlarda müəyyən olunmuş nəticələrə çatmaq üçün uğurlu irəliləyişlərin əldə edilməsində dərsliyin rolu əvəzsizdir.

Aparılan pedaqoji, psixoloji araşdırmalar da onu göstərir ki, demək olar, bütün zamanlarda dərsliklərin təlim prosesindəki əhəmiyyəti və rolu pedaqoq alimlərimizin diqqətini cəlb etmişdir. Lakin onun şagirdə yönəlməsi, şəxsiyyətyönlü xarakter alması ötən əsrin sonlarından bir problem kimi meydana çıxmışdır. "Şagirdlərin təfəkkürünü inkişaf etdirməklə əqli fəaliyyətin əsas üsullarını formalaşdırmaq" dərsliyin hazırlanmasında mühüm didaktik prinsiplərdən biri kimi dəyərləndirilmişdir. Son vaxtlar psixopedaqogika sahəsində tədqiqat aparan professor Ə.Ə. Əlizadə bu məsələ ilə bağlı belə nəticəyə gəlmişdir: "Şagird şəxsiyyətinin formalaşdırılmasında dərsliklərin rolunun hər vasitə ilə artırılması zəruridir".

Göründüyü kimi, pedaqogika və psixologiya sahələrində tədqiqat aparan alimlərdən bəziləri dərslik probleminə toxunaraq onun bir sıra xüsusiyyətlərini şərh etməyə çalışmışlar. Lakin müasir təhsil müstəvisində mövcud olan ənənəvi araşdırmalar get-gedə öz aktuallığını itirməyə başlamış, əvəzində yeni yanaşmalarla zəngin olan müddəalar meydana çıxmışdır. Bunlar bilavasitə dərsliklərin hazırlanmasının mühüm pedaqoji problemi kimi qoyulması, istiqamətləndirici məzmuna malik olması, inteqrativ xarakter daşıması və sairlə əlaqədardır. İlkin araşdırmalar onu göstərir ki, bu xüsusiyyətlərin şərh edilməsi dərsliklərin şəxsiyyətyönlü, inteqrativ cəhətinin aydın təsəvvür olunmasına imkan yaradır.

Dərsliklərin yaradılması sahəsində əldə olunmuş təcrübələr göstərir ki, ənənəvi qaydada əksər dərsliklərin hazırlanmasına müvafiq elm sahəsinin nailiyyəti kimi yanaşılmışdır. Ona görə də dərsliklərin ümumi quruluşunun müəyyən olunmasında daha çox elmi-nəzəri materialların mənimsənilməsi ardıcıllığı əsas götürülmüşdür.

Nəticədə riyaziyyat dərsliklərinin belə bir sistemlə hazırlanması, onun daha çox dekarativ xarakterli materiallarla yüklənməsinə gətirib çıxarmışdır. Bundan əlavə, həmin dərsliklərin müəllifləri elmin daxili məntiqinə tabe olmaqla onu daha çox monoqrafik üslubda yazmağa meyil göstərmişlər. Bu proses ayrı-ayrı elmlərin sisteminə uyğun olan, anlayışlarla yüklənmiş kitabların (dərsliklərin) meydana çıxması ilə nəticələnmişdir. Ona görə də çox hallarda ümumtəhsil məktəblərinin dərsliklərindən danışarkən onun keyfiyyətinə, oradakı anlayışların təhlilinə, nəzəri mülahizələrin doğruluğuna elmin nailiyyəti baxımından yanaşılır, qiymət verilir.

Heç şübhəsiz, dərsliklər öz məzmununda fənnin tələbinə uyğun olaraq müəyyən nəzəri anlayışları ehtiva edir. Onun tərtib olunmasında elmlik zəruri prinsiplərdən biri kimi əsas götürülür. Elmin son nailiyyətlərinin dərsliklərə gətirilməsi, onlardan həyati bacarıqların formalaşdırılmasında istifadə edilməsi mühüm tələb kimi qarşıya qoyulur. Lakin bu, elmin əsaslarının kursun məzmununa daxil edilməsinə, dərsliklərin bütövlükdə nəzəri anlayışların mənbəyinə çevrilməsinə heç də əsas vermir.

Ümumiyyətlə, dərsliklərin hazırlanması ciddi pedaqoji problemdir. Onun həll edilməsi üçün cəmiyyətin real tələbatlarına uyğun təhsil standartlarının yaradılması, bu prosesi tənzimləyən didaktik prinsiplərin müəyyənləşdirilməsi vacib hesab edilir. Yalnız bundan sonra mükəmməl dərsliklərin hazırlanmasından danışmaq olar.

Dərslik özünün mahiyyəti və məzmununa, funksiyalarına görə digər vəsaitlərdən, kitablardan fərqlənir. Uzun zaman ona məlumat mənbəyi kimi baxılsa da, illər keçdikcə dərsliyin struktur elementlərinə şagirdlərin bacarıq və vərdişlərini formalaşdırmaq üçün lazım olan təlim materialları daxil edilmişdir. Bu dəyişmə və təkmilləşdirmə onun əhəmiyyətinin artması və rolunun dəyişməsi ilə baş vermişdir. Xüsusilə də indiki vaxtda dərsliyin funksiyasında daha əsaslı dəyişikliklər etmək, onun hazırlanmasını ciddi pedaqoji problem kimi tənzimləmək, elmi, nəzəri əsasda başa çatdırmaq tələb olunur. "Ümumi təhsil sistemində dərslik siyasəti"ndə göstərildiyi kimi, "ümumtəhsil məktəb dərslikləri, əsasən, müvafiq iş dəftəri və müəllim üçün metodik vəsaitlə birlikdə qəbul olunur". Belə olan halda isə həmin dərslik dəstinin nümunəsində müəllim-şagird-valideyn üçlüyünün bağlılığı yaranır. Beləliklə də, dərsliyin təlim prosesində əlaqələndirici funksiyası daha da güclənmiş olur.

Məlum olduğu kimi, nəticəyönlü Kurikulumların meydana gəlməsi, təhsil standartlarının yaradılması, nailiyyətlərin dəyərlərlə müəyyənləşdirilməsi diqqətin daha çox təlim nəticələrinə yönəldilməsini tələb edir. Bu isə öz növbəsində nəticələrə çatmaq üçün hər hansı strategiyanı seçməkdə müəllimə sərbəstlik verir. Müəllim bu strategiyaları özü müəyyənləşdirməlidir. Bir sıra xarici ölkələrdə olduğu kimi, resurslar çox olduqda

müəllimlərin, eləcə də şagirdlərin seçim imkanları genişlənir. Onlar məqsədlərinə uyğun hər hansı vasitə və ya iş üsuluna müraciət etməkdə sərbəst olurlar. Belə şəraitdə dərsliklər bir təlim vasitəsi kimi digərlərindən o qədər də fərqlənmir. Ona görə də dərsliklərin təlim prosesindəki əvvəlki roluna "əvəzolunmaz" münasibət dəyişir.

Yeni dərsliklərlə bağlı aparılan araşdırmalardan alınan ilkin nəticələr ondan ibarətdir olmuşdur ki, kurikulumlara uyğun dərsliklərin əvvəlkilərdən fərqli qaydada hazırlanacağı, tədris vahidlərindən ibarət hissələrə malik bir vəsait kimi formalaşdırılacağı nəzərdə tutulur. Paraqraflardan ibarət hər tədris vahidindən sonra yekunlaşdırıcı qiymətləndirmə vasitələrinin (test tapşırıqlarının) verilməsi əhəmiyyətli hesab edilir.

Ümumi təhsilin şəxsiyyətyönlüyü, şagirdlərin nəticələrə uyğun səriştələrin formalaşdırılması dərsliklərin tədris vahidlərindən, hər bir tədris vahidinin paraqraflardan ibarət olması, onların qiymətləndirmə vasitələri ilə tənzimlənməsi, habelə dərsliklərə uyğun iş dəftərlərinin hazırlanıb şagirdlərin istifadəsinə verilməsi zərurətini doğurur.

Dərslik və iş dəftəri üzərində müəllim fəaliyyətini nizamlamaq üçün müəllim kitabı hazırlanır. Mahiyyət etibarilə bu kitab yalnız müəllimlərə aid olduğundan burada müəllimin bütün irəliləyişlərini tənzimləyən materiallar verilir. Dərslikdəki sualların, tapşırıq və çalışmaların açılışları bu kitabda öz əksini tapır. Ona görə də metodik vəsaitin yalnız müəllimlərə paylanması normal hal kimi qəbul olunur.

Məlum olduğu kimi, bütün təhsil standartlarında şagirdlərin fəaliyyət istiqamətləri əsas götürüldüyündən təlim nəticələri bütövlükdə şagirdlərə yönəldilmişdir. Təhsilin hər hansı pilləsində şagirdin inkişafını izləmək, onu istiqamətləndirmək üçün imkanlar yaradılmışdır. Elə buna görə də Kurikulumların hazırlanmasında şagirdyönlülüyün nəzərə alınması xüsusi prinsip kimi qeyd edilmişdir.

Riyaziyyat dərsliklərinin tərtib olunması zamanı yeni fənn kurikulumlarının xüsusiyyətləri, özünəməxsus cəhətlərindən olan təhsil prosesində əhatəlilik daha geniş miqyas almalı, məzmun, texnologiya və ya qiymətləndirmə problemlərinin həllində ona diqqət yetirilməlidir. Təhsil şəraitinin qurulmasında şəxsiyyət modelinin bütün parametrlərdə tələbləri ödənilməlidir. Analoji olaraq bu cəhətlərin riyaziyyat dərsliklərinin hazırlanmasında da nəzərə alınması vacib hesab edilir. Onun hər bir materialının seçilməsində, yaxud hazırlanmasında şagirdlərin arzu və istəkləri, maraq dairələri, eləcə də yaş və anlaq səviyyəsi əsas götürülməlidir. Bundan əlavə, şagirdlərin fiziki imkanları diqqət mərkəzində saxlanılmalıdır.

Dərsliklərin yaradılması tarixində ondan istifadə edənləri məlumatlandırmaq, onlara elmin sahələri ilə bağlı müəyyən biliklər vermək ön planda dayanmışdır. Bu səbəbdən də bəzi pedaqoji ədəbiyyatlarda dərsliyin informasiya vermək funksiyasından danışılmış, bir xüsusiyyət kimi mahiyyətindən bəhs olunmuşdur. Təbii ki, bir tədris kitabı kimi dərsliklərin informasiya mənbəyi olması zərurətdir. Lakin hazırki dövrdə informasiya mənbələrinin çoxalması və çeşidli informasiyaların içərisindən ən lazım olanın seçilməsi onu göstərir ki, dərslik əsas dərs kitabı kimi informasiya mənbəyi olmaqdan daha çox istiqamətləndirici mahiyyət kəsb etməlidir. Onun materiallarının məzmununda, ardıcıllığında və sistemində şagirdi fəaliyyətə sövq edən, istiqamətləndirən bir məntiq dayanmalıdır. Bunların reallaşmasının birinci əsasını şagirdin stimullaşdırılması, onda təlim marağının yaradılması, motivləşmə təşkil edir. Riyaziyyatda motivləşmə dedikdə orqanizmi fəallaşdıran və həmin fəallığı istiqamətləndirən təhriklər nəzərdə tutulur. Psixoloqların gəldiyi qənaət bundan ibarətdir ki, qabiliyyətli uşaqların bir çoxu motivasiya çatışmazlığı ucbatından yaxşı oxumur. Ona görə də təlim səviyyəsini yüksəltmək üçün uşaqların öyrənmə marağına təsir göstərmək, onu stimullaşdırmaq vacib hesab edilir. Bunun üçün mühüm yollardan biri vasitələr sistemini

həmin tələbə uyğunlaşdırmaqdan ibarətdir. Bu isə öz növbəsində dərsliyin motivasiya imkanlarını genişləndirməyi tələb edir.

Tədqiqat göstərir ki, dünyada bu problemin həllinə iki istiqamətdə yanaşılmışdır. Birinci, dərsliklərin maraqlı təlim vəsaitinə çevrilməsi üçün təlim tapşırıqları şagirdlərin yaş səviyyəsinə uyğun olaraq daha çox əyləncəli riyaziyyat məsələləri, oyun elementləri, mütəhərriklik tələb edən maraqlı fakt və hadisələr üzərində qurulur. İkinci, şagird dərsliklərini daha çox idraki tapşırıqlarla zənginləşdirmək üstün keyfiyyət kimi qəbul olunur. Çünki bu pillədə şagirdlərin təfəkkür fəallığını tələb edən məsələlərə, tapşırıqlara daha çox diqqət yetirilir. Şagirdlər bunların icrasından, əldə etdikləri nəticələrdən həzz alır, qürur hissi keçirirlər.

Şagirdlərin axtarışa, tədqiqatçılığa sövq olunması dərsliklərin mühüm istiqamətverici xüsusiyyətinin təzahür formalarından biridir. Bu cəhət bütün ümumtəhsil məktəblərinin dərsliklərinə şamil edilir. Onların hazırlanmasında mühüm tələb kimi qarşıya qoyulur. Bunu müasir dövrün təhsil tendensiyası, qlobal dünyanın informasiya bolluğu və intellekt əsrinin inkişaf qanunauyğunluqları diktə edir. Ona görə də "Müasir təhsil konsepsiyası ənənəvi didaktik sistemdən fərqli olaraq, koqnitiv strukturların inkişafı problemini sadəcə olaraq hafizə məkanında deyil, yeni psixoloji məkanda, təfəkkür və hiss məkanında həll edir" [8]. İlkin araşdırmalar da onu göstərir ki, şagirdlərin axtarışlara sövq olunması, onların bir tədqiqatçı kimi fəaliyyətə cəlbi dərsliklərdə idrak fəallığını tənzimləyən sistemli çalışmaların, eləcə də sual və tapşırıqların olmasını tələb edir. Ona görə də bu çalışma və tapşırıqlar hazırlanaraq dərsliklərə daxil edilərkən şagirdlərin fəaliyyətinin mərhələləri diqqət mərkəzində saxlanılmalıdır. Bilmə, anlama, tətbiqetmə, analiz, sintez və qiymətləndirmə mərhələlərinin bir-birinin davamından ibarət məntiqi ardıcıllığı əsas kimi götürülməlidir. Uşaqlarda əqlin genişliyini konkretliyini, dərinliyini, çevikliyini, fikrin surətini, məntiqliyini inkişaf etdirmək üçün onları müxtəlif fikri əməliyyatlara sövq edən iş formalarından istifadə olunmalıdır. Bu, o məntiqdən irəli gəlir ki, adətən, fikri fəaliyyət zamanı insan müxtəlif əməliyyatlardan-təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə və sairdən istifadə edir.

Özünüreallaşdırma, özünütəqdimetmə müasir insanın ən mühüm keyfiyyətlərindən biridir. Təlim-tərbiyə prosesində bu işin dəstəklənməsi, onun müəllim və şagird fəaliyyətinin mərkəzinə gətirilməsi xüsusi olaraq əhəmiyyətlidir. Bunun bir mühüm yolu dərsliklərdə təfəkkür müstəqilliyini təmin edən, onu daha qabarıq göstərən materialların, o cümlədən çalışma və tapşırıqların verilməsidir. Müasir riyaziyyat dərsliklərinin hazırlanması ilə bağlı aparılan araşdırmalarda da belə nəticəyə gəlinmişdir ki, şagirdləri fəaliyyətə sövq etməklə tətbiqi xarakter daşıması yeni dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir, onlarda bacarıqları formalaşdıra bilmək imkanının olması üstün cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ riyazi çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur.

**Məqalənin aktuallığı.** Riyaziyyat dərsliklərində müəyyən fəaliyyətlərin əlaqələndirilməsi nəzərdə tutulmuş biliklərin daha möhkəm mənimsənilməsi baxımından əhəmiyyət daşıyır. Əslində, fəaliyyət öz-özlüyündə idrakla bağlı anlayışdır.

**Məqalənin elmi yeniliyi.** Bütün bunlar göstərir ki, şəxsiyyətə yönəlmiş müasir dərsliklər özünün bir sıra xüsusiyyətləri ilə, o cümlədən pedaqoji xarakteri, istiqamətverici məzmunu, inteqrativ xüsusiyyəti ilə əvvəlki dərsliklərdən fərqlənir. Həmin fərqlərin nəzərə alınması bu günü reallıqları baxımından aktual hesab edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Hər bir dərslik yalnız nəzəri materiallardan

ibarət deyildir. Yaxud əksinə, dərsliklər yalnız praktik çalışmalara ehtiva etmir. Bunlarda nəzəri və praktik materiallar əlaqələndirilir, vahid bir istiqamətə yönəldilir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi "Ümumi orta təhsil səviyyəsinə yeni fənn kurikulumlarının tətbiqi üzrə": Təlim vəsaiti. Xəzər universitetinin nəşriyyatı Bakı, 2012.
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004), I kitab. Bakı: Təhsil, 2005.
3. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Psixopedaqoji araşdırmalar. Bakı: Adiloğlu, 2001.
4. Hüseynova G. Kurikulum təliminə baxış. Bakı, 2017.

**К. Алиева, В. Рзаева**

## Характерные особенности учебников математики созданных на основе личностно ориентированных куррикулумов

## Резюме

Обосновывается необходимость создания новых учебников отвечающих современным требованиям на основе личностно ориентированных куррикулумов. Анализируются характерные особенности основных вопросов для решения этой задачи.

**K. Aliyeva, V. Rzayeva**

## The features of mathematic textbooks created on the base of personality oriented curriculums

## Summary

Necessity of the creation of the personality oriented textbooks to demand of the modern time is grounded in the article. Its specific features are analyzed. Having the pedagogical character, guiding content and integrarive feature is presented as important directions of preparing of the textbook.

**Redaksiyaya daxil olub:** 14.02.2019